# "Arxamızca qorxulu bir gənclik gəlir"

## Elşən Cəbrayılov: "O gənclərin çoxunda teatr sevgisi yoxdur..."

## "Bu sənətdə olmazın əziyyətlər çəkmişəm"



Müsahibimiz Akademik Dövlət Milli Dram Teatrının ("Azdrama") peşəkar aktyoru, Respublikanın Əməkdar artisti Elşən Şahin oğlu Cəbrayılovdur. Onunla görüşümüzdə səhnəyə gəlişi və yaradıcılığı ilə bağlı söhbətləşdik.

*(Əvvəli ötən sayımızda)*

***- Səhnədə ən uğurlu, sizi tamaşaçılara daha çox sevdirən rolunuzun hansı olduğunu düşünürsünüz?***

- Bilirsiniz, mən bütün rollarıma qısqanclıqla yanaşıram. Bütün rollarımı sevirəm. Sözsüz ki, bir çox tamaşalar oynamışam. Baş rollarda da oynamışam. "Varlı qadın" məni tamaşaçılara bir başqa cür, " Müsyo jordan" isə tamam başqa cür sevdirib. "Qürbətdən gələn məktublar"da. Mirzə Fətəli Axundzadənin oğlu Rəşid Axundzadənin rolunu oynayıram. O, məni başqa cür tamaşaçılara sevdirib. Əlbəttə, " Müfəttiş" tamaşası sənətin pik nöqtəsi, partlayışıdır ki, məni tamaşaçılar " Müfəttiş" tamaşasıyla daha da çox sevməyə başladılar. Təbii ki, hər tamaşanın, hər rolun öz tamaşaçı sevgisi var. Ola bilməz ki, bir rolumu sevən kəs, o biri rolumu sevməsin. Mən rollarımı bir-birindən ayırmıram. Bağban bağ salır ağac əkir, əkdiyi ağaclardan meyvə, məhsul götürür. Hər rol da mənim məhsullarımdık. Rollarımın uğuru o deməkdik ki, deməli, zəhmətimin bəhrəsini görürəm.

***- Ümumiyyətlə, səhnədə hansı obrazı canlandırmaq istərdiniz?***

- Bir çox obrazlar var ki, mən onları canlandırmaq istəyirəm. Vaxtilə çox arzuladığım obrazlar da olub. Artıq həmin obrazları oynamaq üçün o yaş deyil. O obrazları oynamaq üçün çox gənc olmaq lazım idi. Amma təbii ki, indi oynamaq istədiyim obrazlar var. Hansı obrazlardır, açıqlamayacam. Çünki hansı obrazın adını çəkirəm, o tamaşa qurulanda görürəm ki, həmin rolu başqa adama veriblər. Bilmirəm, bunu bilə-bilə ediblər, yoxsa bu bir təsadüfdür. Yaratmalı çox obrazlar var. Hələ bundan sonra da yaratmalıyam, yaradacağam da. Nə qədər yaşayacağım obrazlar var. Nəyə görə yaşayacağım obrazları dedim? Çünki mən o obrazlarla yaşayıram. Tamaşada bir obrazı, bir rolu yaratdınsa, o obrazı, o rolu yaşamalısan. Yaşamadınsa, deməli, sən hələ güclü aktyor deyilsən. Aktyor, sənətkar əsl sənət fədaisi olmalıdır. Bir sözlə, sənətinin aşiqi, Məcnunu olmalıdır.

***- Necə düşünürsünüz, teatr cəmiyyətin inkişafında hansı rolu oynamalıdır?***

- Teatr cəmiyyətin inkişafında həmişə rol oynayıb və oynayacaq da. Sadəcə, teatr çətin dövrələrdən, mərhələlərdən keçib. Amma teatr canlı ünsiyyətdir. O canlı ünsiyyəti sevməyən insanlar ki var, mən onları tamaşama dəvət eləmişəm. Onlar gəlib teatrda tamaşama baxandan sonra, teatrdan çıxmaq istəməyiblər. Həmişə istəyiblər ki, gəlib tamaşaya baxsınlar. Teatr bir sehrdir, müqəddəs yerdir. Teatra gələn insan artıq onun təsirini görür, onunla daxilən zənginləşir, daxilən varlanır. Ömründə bir dəfə teatra qədəm qoymayan şəxs mənən kasıb sayılır, formalaşa bilmir. Teatra gedəndən sonra sözün əsl mənasında kasıb hisslərini doyururlar. İnsanın kamilləşməsində, formalaşmasında teatrın bilavistə rolu var və rolu böyükdür.



***- Etiraf etməliyik ki, ötən əsrin sonlarına nisbətən teatrlara maraq azalıb. Sizcə, bu, nə ilə bağlıdır və "tamaşaçı böhranı"dan necə çıxmaq olar?***

- Çünki teatrın bu gün çətin dövrüdür. İnternet, bu qədər sosial şəbəkələr... İnsana nə lazımdı, əlinin altında bir düyməni basıb, ona da baxa bilər. Amma teatr canlı ünsiyyətdir. Heç bir sosial şəbəkə, heç bir efirdə gedən tamaşa qətiyyən teatrın yerini verə bilməz, ünsiyyəti əvəz edə bilməz. "Tamaşaçı böhranı"ndan onda çıxa bilərik ki, yalnız və yalnız balacalıqdan, məktəb yaşlarından uşaqlarımıza teatr sevgisini aşılamalıyıq. Böyüklər uşaqlara uyğun tamaşalara övladlarını da gətirməlidirlər. Əlbəttə, o uşaqların çox xeyrinə olacaq, bunu mən - Elşən Cəbrayılov deyirəm.

***- Siz necə övladlarınızı tamaşalarınıza gətirirsiniz?***

- Bəli ara-sıra tamaşalarıma gəlib baxırlar. Düşünürəm ki, o da onların formalaşması üçün çox xeyirdi. Çalışıram ki,- dərslərini yaxşı oxusunlar.

***- Bəs, bu gün bizim teatrlar toplum qarşısındakı missiyalarının öhdəsindən gələ bilirlər?***

- Gəlirlər, əlbəttə ki, gəlirlər. Tamaşalarımız da var, rəhbərliyimiz də əlindən gələni edir ki, hər şey yaxşı olsun. Bilirsiniz, mən bunu həmişə demişəm, pis başa düşülməsin, bizim xalqımız o dərəcədə teatral deyil. İnsanları teatra cəlb etmək lazımdır. İnsanların çox az faizi teatraldır. İndiki gənclərə teatrdan, aktyorlardan, məni demə, filankəsi demə, ən böyük sənətkarlardan sual versən, inanın mənə tanımayacaqlar. Çünki gənclər ayrı mühitdə böyüyüblər. Çox qorxulu gənclik gəlir. Onların yaradıcılıq baxımından daxilləri necə olacaq, deyə bilmərəm. Amma mən görürəm ki, arxamızca qorxulu bir gənclik gəlir. Ağıllı gənclik də var, qorxulu gənclik də. Gəncləri düzgün yolda tərbiyələndirmək lazımdır. O gənclərin çoxunda teatr sevgisi yoxdur.



Teatra sevgi qalıbsa da yaşlı nəsildə, orta nəsildə qalıb. Biz çalışmalıyıq ki, həmin gənc nəsli tərbiyələndirək. Onlar teatrın nə olduğunu bilməlidilər. İnanın ki, elə gənclər var, teatra gəlir, ayaq üstə elə alqışlayıb ağlayırlar ki... Mən şəxsən o cür gəncləri də görmüşəm. Tamaşadan sonra gəlib məndən avtoqraf alan gəncləri də görmüşəm. Bu da, əlbəttə ki, teatra sevgidən irəli gəlir. Həmişə onlara deyirəm ki, siz niyə gəlib tamaşalarımıza baxmırsınız? Deyirlər ki, vaxtımız yoxdur. Tamaşaya gəlib başqa təəssüratla çıxırlar. Gəncləri maarifləndirmək, zənginləşdirmək lazımdır. Bunun üçün də çoxlu layihələr işləmək lazımdır. Xüsusi proqramlar lazımdır.

***- Bu gün cəmiyyətin böyük kəsiminin daha çox maraq göstərdiyi seriallarda Elşən Cəbrayılovu görmürük. Buna səbəb nədir?***

- Bunun çox səbəbi var. Maddiyyat səbəbi var. Qeyri-professionallıq var. Çox qəribədir ki, mənim özümə suallar verirlər, mən onların özlərinə sualları qaytarıram ki, hansı seriallara baxırsınız? Deyirlər, heç birisinə baxmırıq. Hamısı biabırçılıqdır. Amma mən o serialları çəkənlərin heç birisini qınamıram. Çünki onlar çox əziyyətlə serialları ərsəyə gətirirlər. Amma yenə də bizə yüksək professionallıq lazımdır. Mən çox istəyirəm ki, tarixi seriallarda rol oynayım. Təbii ki, seriallarda çəkilmək istəyirəm. Mən istədiyim seriallar olmayıb deyə, imtina etmişəm. Çoxları gedib çəkilirlər. O da dolanışıq üçün. Mən onları da qınamıram. Səbəblər müxtəlifdir. Gözəl ssenari olsun, gözəl çəkiliş olsun, əlbəttə, mən də çəkilərəm. Bir sözlə, keyfiyyətli işlə yadda qalmaq istəyirəm. Görürəm ki, mən istədiyim, mənə uyğun seriallar yoxdur, ona görə də teatrdakı rollarımla kifayətlənməli oluram.

***- "Azdrama"da son günlər daha çox köhnə repertuara üstünlük verilir. Yeni hansı tamaşalarınız var?***

- Yeni tamaşalar var. Sonuncu dəfə "Dəli yığıncağı"nda rolumu oynadım, Formasyon Rüstəm rolunda. Bu rolu vaxtilə, illər öncə Ramiz Məlikov oynayıb, Mehdi Məmmədovun quruluşunda. Bu dəfə tamaşa bizim gözəl rejissorumuz Bəhram Osmanovun quruluşundadır. Bizim çox gözəl aktyor ansablımız var. Kolleqalarımızla bir yerdə o tamaşanı biz oynadıq. Tamaşaçılar tərəfindən anşlaqla da qarşılandı tamaşamız.

***- Dövrün tanınmış sənətkarları ilə tərəf müqabili olan Elşən Cəbrayılov ən çox kiminlə rol oynamaq istəyib, ancaq buna imkan olmayıb?***

- Öz yaşıma görə, mən çox aktyorlarla, demək olar ki, 99 faizi ilə tərəf müqabili olmuşam, lap o rəhmətliklərin, mogikanların dövrün demirəm. Onların çoxuyla rol oynamışam. Çox qəribədir ki, mən Kamal Xudaverdiyevlə bir tamaşada iştirak etmədim, amma onun dövründə yaşayan bütün aktyorlarla rol oynamışam. Telman Adıgözəlovla, Yaşar Nuri ilə, Siyavuş Aslanla bir neçə dəfə tamaşalarda rollar oynamışam. Mikayıl Mirzə, Bürcəli Əsgərov, Sevil Xəlilova, Zərnigar Atakişiyeva, Zemfira Əliyeva, Safura İbrahimova ilə rollar oynamışam. Həsən Turabov və Yaşar Nuri ilə tərəf müqabili olmuşam.

***- Ailədə balaca Şahin Cəbrayılov böyüyür. İstərdinizmi ki, sizin yolunuzu davam etdirsin?***

- Əsla, əsla heç istəmirəm, atam da istəmirdi ki, mən sənətə gəlim. Amma mən sənətə gəldim. Ancaq mən istəmirəm ki, oğlum yolumu davam etdirsin. Çox sevinirəm ki, mənim oğlumda o hisslər yoxdur. İncəsənət adamı deyil, teatral insan deyil. Qızım incəsənətin vurğunudur. Amma mənə ona səhnəyə, sənətə gəlməyə imkan verməyəcəm, qoy getsinlər başqa sənətin sahibi olsunlar. Bu sənət çox əziyyətli sənətdir. İnsan əziyyət çəkir, çətinliklər çəkir. Elə unudulursan, elə yaddan çıxırsan ki, insan yaralı bir quş kimi çırpınır, qalır yerində. Bilmirsən ki, neyləyəsən. Aktyorun ürəyini yaralamaq, qırmaq çox asandır. Yaralı ürəyi, qırılmış ürəyi düzəltməksə çox çətindir. Aktyor ürəyini həm də bir təmiz aynaya, güzgüyə bənzədirəm. Ayna sındısa, onu düzəltmək olmur. Düzəltmək olsa da ayna həminki kimi olmayacaq. Aktyorun ürəyi də o cürdür. Mən belə düşünürəm. Bəlkə də başqa cür düşünənlər də var. Çox aktyorlarımız var ki, həyatdan, sənətdən, səhnədən çox küskün gediblər. Hər şeyi açıq-aşkar demək də olmur. Bunun müxtəlif səbəbləri var. Rol oynamaq səbəbləri və başqa səbəblər. Ona görə də övladlarımın bu sənətdə olmağını istəmirəm. Çünki özüm bu sənətdə olmazın əziyyətlər çəkmişəm. Qoy oxusunlar, başqa peşə sahibi olsunlar. Yenə də həyatdı, bilmək olmaz. Deyir, "sən saydığını gör fələk nə sayır".

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**